# Tarixin yaddaşı...

## İrəvan Dövlət Azərbaycan Dram Teatrı - 140 il





### Prezident Sərəncam imzaladı

Ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulan müstəqil Azərbaycanın mədəniyyət siyasəti xalqımızın milli dəyərlərini qorumağa, təbliğ etməyə yönəldilmişdir. Ümummilli liderin siyasi kursunun davamçısı Prezident İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi dövrdə mədəniyyət sahəsində də əsaslı islahatlar aparılır, milli-mənəvi dəyərlərimizin inkişafı diqqət mərkəzində saxlanılır.

Mədəniyyətin, adət-ənənələrin, yaşam tərzinin nümayiş olunduğu incəsənət sahələrindən biri də teatr sənətidir. Azərbaycan teatr sənəti qədim tarixi köklərə malikdir. Xalqımızın adət-ənənələri, fəaliyyəti, məişətini, mədəniyyətini özündə ehtiva edən bu sənət sahəsinin inkişafının təmin edilməsi daim diqqət mərkəzində saxlanılmaqdadır. Belə ki, uzun və şərəfli yol keçmiş Azərbaycan teatrı son illər ərzində daha da təkmilləşərək yeni inkişaf mərhələsinə qədəm qoyub. Teatr binalarında aparılan əsaslı təmir-bərpa işləri, incəsənət nümayəndələrinin sosial-rifah halının daha da yaxşılaşdırılması, ümumilikdə teatr sahəsinə göstərilən xüsusi diqqət və qayğı dövlətin, xüsusilə ölkə başçımızın bu sənətə qayğısının əyani nümunələrindən biridir.

Milli teatr sənətinin inkişafında mühüm yer tutan İrəvan Dövlət Azərbaycan Dram Teatrı Qafqazın qocaman sənət ocaqlarından biridir. Bu il İrəvan Dövlət Azərbaycan Dram Teatrının 140 illiyi tamam olur. Bu münasibətlə Prezident İlham Əliyev İrəvan Dövlət Azərbaycan Dram Teatrının 140 illiyinin qeyd edilməsi haqqında Sərəncam imzalayıb.

İrəvan Dövlət Azərbaycan Dram Teatrı azərbaycanlıların tarixən köklü yaşadığı mühüm elm, maarif və mədəniyyət mərkəzlərindən biri kimi tanınan İrəvan mahalında 1882-ci ildən etibarən fəaliyyətə başlayıb. Teatr sonrakı dövrlər ərzində özünün zəngin repertuarında milli ədəbi-bədii fikrin nailiyyətlərinə daim xüsusi yer verərək tamaşaçıların rəğbətini qazanıb və mədəniyyət salnaməmizə yaddaqalan səhifələr yazıb. Azərbaycanın görkəmli səhnə ustalarından bir çoxunun yaradıcılıq taleyi peşəkar milli teatrımızın ayrılmaz tərkib hissəsinə çevrilən bu qocaman sənət ocağı ilə sıx bağlıdır.

Keşməkeşli yol keçmiş və dəfələrlə erməni vandalizminə məruz qalmış teatrın salnaməsi əzəli Azərbaycan torpaqlarındakı həmyerlilərimizin tarixi taleyinin bir parçasıdır. 1918-1920-ci illərdə ermənilər İrəvanda kütləvi qırğınlar törədərkən aktyor truppası mühacirətə üz tutan teatr öz fəaliyyətini 1922-ci ildə bərpa etmiş, Azərbaycan ziyalılarının fədakarlığı sayəsində 1928-ci ildə müvafiq qərarla dövlət teatrı statusunu almış, 1935-ci ildən isə böyük dramaturq Cəfər Cabbarlının adını daşımışdır.

Azərbaycanlıların Ermənistandan 1948-1953-cü illərdəki deportasiyasından da acı nəsibini alaraq, fəaliyyətini yalnız 1967-ci ildə bərpa edən İrəvan Dövlət Azərbaycan Dram Teatrı 1980-ci illərin sonlarında ermənilərin yenidən başlatdığı etnik təmizləmə və təcavüzkarlıq siyasəti nəticəsində yurddaşlarımızla bərabər didərgin düşmüş, qaçqın həyatı yaşamalı olmuşdur.

1989-cu ildən Bakı şəhərində məskunlaşan teatr ötən müddətdə ənənəvi repertuarını rəngarəng mövzularda yeni-yeni əsərlərlə daha da genişləndirib və bir sıra yaradıcılıq uğurları qazanıb.

Prezident İlham Əliyevin dünən imzaladığı Sərəncamda deyilir:

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və İrəvan Dövlət Azərbaycan Dram Teatrının xalqımızın mədəni-ictimai həyatında özünəməxsus rolunu nəzərə alaraq qərara alıram:

1. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi İrəvan Dövlət Azərbaycan Dram Teatrının 140 illiyinə dair tədbirlər planı hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***Nicat PAŞA***